*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 iyun 2018-ci il № 46 (2262) Qiyməti 25 qəpik


## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Müqəddəs Ramazan bayramı münasibətilə sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi "Qurani-Kərim" on bir ayın sultanı sayılan mübarək Ramazan ayında nazil olmuşdur. Müsəlmanlar bu ayda Uca Yaradan qarşısında vicdani borcunu yerinə yetirmək fürsəti əldə edir, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Orucluq mərasimləri hər il cəmiyyətimizdə humanizmin, birlik və bərabərliyin təntənəsinə çevrilir. Bu mübarək ayda xalqımızın və dövlətimizin əmin-amanlığı və tərəqqisi naminə edilən bütün dua və diləklərlə həmrəy olduğumu bildirir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini minnətdarlıqla yad edirəm.

Əlamətdar haldır ki, builki Ramazan günləri müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubiley təntənələri ilə bir vaxta təsadüf edir. Müstəqil dövlətçiliyimizin bərpasından sonra ölkədə mütərəqqi islami dəyərlərin bərqərar edilməsi cəmiyyətimizin mənəvi-əxlaqi yüksəlişinə təkan vermiş, öz milli köklərinə daim sadiq qalan xalqımızın bütövlüyünü, vəhdətini və həmrəyliyini daha da gücləndirmişdir. Bu gün dövlət müstəqilliyimizin möhkəmləndirilməsi uğrunda Azərbaycanın oğul və qızlarının sarsılmaz mübarizə əzmi və yüksək vətənpərvərliyi tarixi ənənəyə və milli-mənəvi dəyərlərə bağlılığın bariz nümunəsidir.

Əziz bacı və qardaşlarım!

Könül xoşluğu ilə yola saldığımız Ramazan ayı artıq başa çatır. Bu əziz bayram günlərində bir daha etdiyiniz dua və niyyətlərin Ulu Tanrı dərgahında qəbul olunmasını arzu edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət diləyirəm.

Ramazan bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyun 2018-ci il.

## Dövlətçilik tariximizin qurtuluş günü



*Elə tarixi şəxsiyyətlər var ki, onlar tarixin axarını dövlətinin, xalqının, millətinin mənafeyinə yönəldə bilir, yönəldir. XX əsrdə siyasi idrakıyla, dühasıyla, müqayisəyəgəlməz məntiqiylə, dünya siyasətçilərinin də etiraf etdiyi bənzərsiz istedadıyla Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ yaradan Heydər Əliyev belə tarixi şəxsiyyətlərdən olub.*

Fəaliyyətinin başlıca qayəsi azərbaycançılıq məfkurəsi olan ulu öndər Heydər Əliyev sovetlər dönəmində də, müstəqilliyimiz bərpa olunduqdan sonra da Azərbaycanı məhz bu məfkurənin zəmanətiylə dünyanın ən dinamik inkişaf edən dövlətləri səviyyəsinə çıxartdı.

**(Ardı 3-cü səhifədə)**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür

*Dünyanın enerji xəritəsini zənginləşdirən, Xəzər regionu ilə Avropanı birləşdirən "Cənub" qaz dəhlizinin reallaşdırılması istiqamətində görülən işlər yekunlaşdırılıb. Məlum olduğu kimi, iyunun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Türkiyənin Əskişəhər şəhərində Trans-Anadolu qaz boru kəmərinin (TANAP) istifadəyə verilməsi münasibəti ilə təntənəli mərasim keçirilib.*




TANAP layihəsinin Azərbaycan, eyni zamanda qardaş Türkiyə də daxil olmaqla, Avropa dövlətləri üçün xüsusi iqtisadi və siyasi əhəmiyyətə malik olduğunu qeyd etməyə ehtiyac yoxdur. Azərbaycan Respublikası özünün karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarmaq üçün neft və qaz boru kəmərləri marşrutlarının şaxələndirilməsinə, alternativ ixrac istiqamətlərinə üstünlük verir. İlk dəfə bu təşəbbüslə xalqımızın ümummilli lideri Heydər Əliyev çıxış etmişdir. Xatırladaq ki, "Əsrin müqaviləsi" imzalanan zaman Ulu Öndər Azərbaycan neftini dünya bazarına çıxarmaq üçün şimal və qərb istiqamətləri ilə yanaşı, əsas ixrac marşrutunun - Bakı-Tbilisi-Ceyhan boru kəmərinin də inşasının zəruriliyini bəyan etmişdi. Zaman bu uzaqgörən ideyanın həqiqiliyini sübut etmiş və Bakı-Tbilisi-Ceyhan layihəsi reallığa çevrilmişdir. Ulu Öndərin müəyyənləşdirdiyi siyasi-iqtisadi strategiyanı Azərbaycanda uğurla davam etdirən Prezident İlham Əliyev də ölkəmizin qaz ehtiyatlarının dünya bazarına ixracı üçün şaxələndirilmiş boru kəməri sisteminin yaradılmasına xüsusi önəm verir. Hazırda Azərbaycan təbii qazını dörd istiqamətdə ixrac etmək imkanına malikdir. Bununla belə, ölkəmizin zəngin qaz ehtiyatları daha geniş imkanlara malik ixrac boru kəməri marşrutunun yaradılmasını tələb edirdi. Təsadüfi deyil ki, uzun illər Azərbaycan qazının Avropaya çıxarılması üçün müxtəlif variantlar qızğın müzakirə obyekti olmuşdur. Nəhayət, bu sahədə uzun müddət davam edən müzakirələr öz müsbət həllini tapmış, Azərbaycan qazının Avropaya nəqli üçün ən etibarlı marşrut dəqiqləşdirilmişdir. Bu, Trans-Anadolu qaz kəməri (TANAP) marşrutu idi.

TANAP layihəsi təbii qazın "Şahdəniz", eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan sərhədinə qədər uzanır. Türkiyə və Azərbaycan qardaşlığının növbəti təzahürü olan, ölkələrimizin birgə layihəsi kimi xalqlarımızın rifahına xidmət edəcək Trans-Anadolu qaz kəməri ideyası 2011-ci ildə həyata vəsiqə almışdır. Belə ki, 2011-ci il oktyabrın 25-də Türkiyənin İzmir şəhərində "Azərbaycan Respublikasının hökuməti və Türkiyə Respublikasının hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" saziş imzalanmışdır. 2012-ci il iyunun 26-da isə qardaş ölkənin İstanbul şəhərində "Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair" sazişə imza atılmışdır. 2012-ci il noyabrın 20-də Azərbaycan Respublikası Milli Məclisinin iclasında hər iki saziş müzakirəyə çıxarılaraq təsdiqlənmişdir. Dövlətimizin başçısı İlham Əliyev isə Azərbaycan və Türkiyə hökumətləri arasında bağlanan sazişin təsdiq edilməsi haqqında qanunu imzalamışdır. Beləliklə, yaxın illərdə Azərbaycanı Avropa ölkələrinin qaz bazarları ilə birləşdirəcək Trans-Anadolu ixrac boru kəməri ilə bağlı hüquqi bazanın yaradılması təmin olunmuşdur.

"Cənub" qaz dəhlizinin əsas komponentlərindən sayılan TANAP layihəsi real fəaliyyət sahəsinə çevrilmiş, kəmərin istismarına faktiki olaraq start verilmişdir. Əskişəhər şəhərində kəmərin istismara verilməsi ilə bağlı təşkil edilən təntənəli mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bu gün TANAP-ın istismara verilməsi qonşu və dost ölkələr üçün gözəl imkanlar yaradır. TANAP yeddi ölkəni, bir çox şirkətləri birləşdirir. Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir. Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi iki həftə bundan öncə - mayın 29-da Bakıda təşkil edilmişdir. Cənub Qaz Dəhlizi dörd böyük layihədən ibarətdir. "Şahdəniz-2" qaz yatağının işlənilməsi, - o yatağın ehtiyatları 1,2 trilyon kubmetrdir, - Cənubi Qafqaz Kəməri, TANAP və TAP layihəsi. Bu dörd layihənin üçü artıq reallaşıb, başa çatıb. TAP da 72 faiz icra olunub. Əminəm ki, yaxın iki il ərzində TAP layihəsi də tamamlanacaq və beləliklə, Avropanın 40 milyard dollar sərmayə tələb edən ən böyük infrastruktur layihəsi olan "Cənub Qaz Dəhlizi" icra edilmiş olacaqdır. Bu tarixi nailiyyət bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılsın".

TANAP layihəsi regionda qarşılıqlı əməkdaşlığın növbəti təzahürüdür. Bu, iki qardaş, dost ölkə olan Azərbaycan və Türkiyənin birgə səyi və gücü ilə reallaşdırılacaq daha bir enerji layihəsidir. Gələcəkdə Azərbaycan qazını Türkiyə vasitəsilə dünya bazarına çıxaracaq Trans-Anadolu boru kəməri hər iki ölkənin iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılmasına, bu sahədə tərəfdaşlıq münasibətlərinin bir qədər də möhkəmləndirilməsinə səbəb olacaq. Bununla da, Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının tarixində yeni mərhələ başlanacaq. Eyni zamanda, dünyada enerji təhlükəsizliyinin təmin olunmasında, Cənubi Qafqazın, o cümlədən Xəzər hövzəsində Azərbaycanın Türkiyə və Gürcüstan, Tükmənistan və digər ölkələrin əməkdaşlıq sahəsinin genişləndirilməsi, dünyada qaz ixracı marşrutlarının şaxələndirilməsi, qaz bazarlarına daha çox maye qazın çıxarılması və üçüncü minillikdə dünyada enerji təhlükəsizliyinə töhfənin verilməsidir. TANAP layihəsi, həmçinin Trans-Xəzər qaz kəmərinin gerçəkləşməsi üçün də yeni imkanlar yaradacaq. Belə ki, gələcəkdə Qazaxıstan və Türkmənistanın bu layihəyə qoşulacağı təqdirdə Azərbaycan həm də qaz nəqlində tranzit ölkəyə çevrilmək imkanı əldə edəcəkdir. Nəticədə Azərbaycan dünya arenasında iqtisadi və siyasi müstəqilliyini bir daha təsdiqləyəcək dövlətə çevriləcək.

**"Azərbaycan Ordusu"**

# Raket və artilleriya birləşmələri praktiki atışlar icra edib



Qoşunların 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, Raket və Artilleriya birləşmələri 122 mm-lik yaylım atəşli reaktiv sistemləri və 152 mm-lik toplardan döyüş atışlı məşqlər keçirib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim məşqlərində praktiki döyüş atışlarının yüksək dəqiqliyini və intensivliyini təmin etmək məqsədilə müasir avtomatlaşdırılmış idarəetmə sistemlərindən istifadə edilib.

Müəyyən edilmiş şərti düşmən hədəflərini məhv edən şəxsi heyətin hazırlığı, ustalığı və bacarığı komandanlıq tərəfindən yüksək qiymətləndirilib.

# PDM ekipajları döyüş vərdişlərini təkmilləşdirir



Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına əsasən, PDM ekipajları döyüş vərdişlərini təkmilləşdirir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim məşqlərinin əsas məqsədi zirehli texnika ekipajlarının döyüş qabiliyyətinin artırılması məqsədilə onların çətin keçilən ərazilərdə idarə edilməsi və real şəraitdə uğurlu tətbiqi üzrə vərdişlərin təkmilləşdirilməsidir.

## 15 İyun - Milli Qurtuluş Günü və Ramazan bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə

# Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi 15 İyun - Milli Qurtuluş Günü və Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Milli-mənəvi dəyərlərimiz, dövlətçilik ənənələrimiz tarixin ən sərt dönəmlərində də qorunub saxlanılmışdır. Xalqımız digər milli, dini bayramlar kimi müqəddəs Ramazan bayramını da həmişə böyük istəklə, sevgi ilə qeyd edib. Xeyirxah əməllər naminə birliyə, qardaşlıq və bərabərliyə çağıran, mənəvi saflığa, dostluğa, həmrəyliyə söykənən, ailələrə sevinc, məhəbbət və şadlıq gətirən Ramazan bayramı sülhün, əmin-amanlığın təzahürüdür.

Azərbaycan müstəqilliyə yenidən nail olduqdan sonra, bərpa edilən dövlətçiliyimiz xalqa öz bayramlarını təmtəraqla qeyd etməyə imkan yaratdı. Xalqın təkidli xahişi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində ölkəmiz ictimai-siyasi böhrandan, xaosdan xilas oldu və respublikamızın hərtərəfli inkişafı istiqamətində dönüş yarandı.

Böyük tarixi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə reallaşan beynəlxalq layihələr Azərbaycanın iqtisadi qüdrətinin yüksəldilməsində mühüm rol oynadı.

Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyini, sarsılmazlığını, dönməzliyini sübut edən ulu öndər Heydər Əliyevin prinsipial və dönməz siyasəti ölkənin ordu quruculuğuna da əvəzsiz töhfələr verdi. Müstəqilliyimizin, dövlətçiliyimizin dayağı və qarantı olan müasir Azərbaycan Ordusunun banisi ümummilli lider Heydər Əliyevin başladığı ordu quruculuğu siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, nizami ordumuzun hərbi qüdrəti gündən-günə artır.

Əminəm ki, Azərbaycan Ordusunun şəxsi heyəti ümummilli liderimiz Heydər Əliyevin ideyalarına və Hərbi anda sadiq qalaraq, nizamnamələrin tələblərinə uyğun xidmət edəcək, döyüş və mənəvi-psixoloji hazırlığını artırmaqla Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əmri ilə torpaqlarımızın işğaldan azad olunmasını təmin edəcəkdir.

15 İyun - Milli Qurtuluş Günü və müqəddəs Ramazan bayramı münasibətilə sizi bir daha ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

## ABŞ-ın Oklahoma ştatının Milli Qvardiyasının nümayəndə heyəti ölkəmizdə səfərdədir

ABŞ-ın Oklahoma ştatının Milli Qvardiyasının komandanı general-mayor Maykl Tompsonun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdədir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər çərçivəsində nümayəndə heyəti Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində görüş keçirib və Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzini ziyarət edib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və ABŞ-ın Oklahoma Ştatının Milli Qvardiyası arasında əməkdaşlıq 2002-ci ildən etibarən həyata keçirilir. Ştatla Tərəfdaşlıq Proqramı çərçivəsində ABŞ və NATO ilə əməliyyat uyarlılığı səviyyəsinin artırılması, peşəkar çavuş heyətinin, hərbi mühəndislərin və hərbi tibb mütəxəssislərinin hazırlığı sahələrində əməkdaşlıq və təcrübə mübadiləsi aparılır.

# Dövlətçilik tariximizin qurtuluş günü

**Ümummilli lider Heydər Əliyev:**

*Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərkən məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm.*




**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildiyi zamanda siyasi vəziyyət olduqca gərgin idi. Milli azadlıq hərəkatı imperiyadan asılılığı parçaladı, Azərbaycanın müstəqilliyi bərpa olundu. Lakin hakimiyyət səriştəsizliyi, qarşıdurmalar, bu və ya digər səviyyədə ambisiyalar, separatçılığa meyillər, hakimiyyətin bu meyilləri aradan qaldırmağı bacarmaması Azərbaycan dövlətçiliyini labüd iflas həddinə gətirib çıxarmışdı. Xalq təkidlə "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" qüruru ilə yaşayan böyük tarixi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə dəvət etdi. 15 İyun Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin iflasdan xilası oldu...

Ulu Öndərin hakimiyyətə gəlişi milli qarşıdurmanın, əslində, vətəndaş müharibəsinin qarşısını aldı, separatçılıq, separatçılığa meyillərin kökünü kəsdi, siyasi sabitlik yarandı - xalqın inamı, etibarı ehtimal edilən təhlükələri aradan qaldırdı.

Dövlətin dünyəvi dövlət kimi tanınması və inkişafı, müəyyən mənada siyasi sabitliklə, vətəndaş həmrəyliyi ilə də bağlıdır. Ulu öndər Heydər Əliyev qısa müddətdə müstəqil Azərbaycanda siyasi sabitlik yaranmasını da, vətəndaş həmrəyliyinin bərqərar olmasını da təmin etdi. Təbii ki, bu, dünya dövlətlərinin diqqətindən yayınmayacaqdı. Bu amil qarşılıqlı iqtisadi əlaqələrdə əhəmiyyətə malik olacaqdı.

Böyük tarixi şəxsiyyətlər dünyəvi siyasətə təsir edə bilir; dünyanın aparıcı dövlətləriylə ikitərəfli, çoxtərəfli iqtisadi əlaqələr qurulmadan dövlətin iqtisadi inkişafı təmin edilə bilməz. Müasir Azərbaycan Respublikası ulu öndər Heydər Əliyevin uzaqgörən xarici siyasəti nəticəsində belə bir inkişaf yoluna qədəm qoydu, "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə istər vətəndaşların sosial-rifahının yaxşılaşdırılmasında, sosial həyatın bütün sahələrində inkişafın təmin edilməsində, istərsə də dövlətçilik üçün başlıca amil olan ordu quruculuğunda müstəsna rol oynadı. Xalq bir daha əmin oldu ki, dövlətçiliyimiz yaşayacaq!

Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda ordu quruculuğu yeni mərhələyə qədəm qoydu. Qısa müddətdə yerli özünümüdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq təmin olundu, ordu quruculuğunun bütün istiqamətləri üzrə geniş islahatlar həyata keçirilməyə başlanıldı. Təbii ki, bu proses Azərbaycandan ərazi iddiası olan, bu iddiaya görə elan etmədən Azərbaycana qarşı müharibəyə başlayan Ermənistanı atəşkəs haqqında sənədi imzalamağa vadar etdi. Bundan sonra ordu quruculuğu daha geniş vüsət aldı.

Dərin zəkaya, güclü intellektə, natiqlik qabiliyyətinə malik olan böyük tarixi şəxsiyyətlər istənilən tribunadan xalqına, millətinə, dövlətinə gərəkli olan fikirləri deyir, dediklərini inandırmağı bacarırlar. Belə tarixi şəxsiyyət olan ulu öndər Heydər Əliyevin tarixi çıxışı sayəsində Azərbaycan dünya birliyinə üzv oldu.

Hələ sovetlər dönəmində ciddi qadağalara baxmayaraq hərbi liseyin açılmasına nail olan, azərbaycanlı gənclərin təhsil almasını təmin edən Ulu Öndərin tələb və göstərişləri əsasında ordu quruculuğunun vacib tərkib hissəsi kimi hərbi təhsilin səmərəliliyi artırıldı. Azərbaycan Ordusunun zabit kadrları ilə komplektləşdirilməsi problemi birmənalı şəkildə həll edildi. Ümummilli Liderin Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, Azərbaycan Ali Hərbi Məktəbində professor-müəllim heyəti və kursantlar ilə görüşləri bu prosesin daha da dönməzliyində, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının yüksəldilməsində mühüm əhəmiyyətə malik oldu.

Müharibə şəraitində hərbi qulluqçuların döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən uğurlu islahatlar Ulu Öndərin cəbhə bölgələrində - səngərlərdə hərbi qulluqçularla görüşləri, söhbətləri, tövsiyələri mənəvi-psixoloji hazırlıq baxımından olduqca gərəkli oldu. Ali Baş Komandanın tövsiyələrini düşmənlə üzbəüz mövqelərdə dinləyən hərbi qulluqçunun döyüş ruhu, qələbə əzmi, təbii ki, yüksəlir.

1994-cü ilin yanvarında Ali Baş Komandanın sərkərdəliyi ilə keçirilən Horadiz əməliyyatı uğurla, qələbəylə başa çatdı. Horadiz qəsəbəsi də daxil olmaqla onlarla yaşayış məntəqəsi düşməndən azad edildi. Bu qələbə şəxsi heyətin döyüş ruhunu yüksəltməklə bərabər, torpaqlarımızın işğaldan azad ediləcəyinə inamı da artırdı. Hamı əmin oldu ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır.

Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda latın qrafikasına keçildi, Azərbaycan dilinin inkişafı və saflığı istiqamətində mühüm sənədlər qəbul edildi. Bunlar xalqa, millətə qayğının, ehtiramın təsdiqi kimi dəyərləndirilir.

Ümummilli Liderin tövsiyələri ilə ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin dünya ədəbiyyatına, incəsənətinə, mədəniyyətinə daha optimal inteqrasiyasının təmin edilməsi üçün mühüm qərarlar qəbul edildi. Yazıçı və şairlərə, bəstəkar və ifaçılara, rəssam və heykəltaraşlara fəxri adların verilməsi bu prosesin mənəvi stimulu oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin daxili və xarici siyasətini bütün istiqamətlərdə uğurla davam etdirir. Azərbaycan kifayət qədər beynəlxalq nüfuza malikdir. Dünyanın əksər aparıcı dövlətləri Azərbaycan Prezidentinin xarici siyasətini dəstəkləyir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin beynəlxalq hüququn prinsiplərinə əsasən Azərbaycanın ərazi bütövlüyü saxlanılmaqla həllində dəyişməz mövqeyini bildirir...

Müasir Azərbaycanın dövlətçilik memarı olan Ümummilli Liderimizin qurucusu olduğu Azərbaycan Ordusu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər daha da mətinləşmiş, nizami ordu kimi tam formalaşmışdır. İndi, Ali Baş Komandanın dediyi kimi, "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında ən güclü ordular sırasındadır". Ali Baş Komandanın, Müdafiə nazirinin tələb və göstərişlərini böyük məsuliyyətlə yerinə yetirməyin Ulu Öndərin siyasi kursuna sədaqət olduğunu bilən hərbçilərimiz torpaqlarımızı işğaldan azad edəcəkdir. Həm də yaxın vaxtlarda...

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# "Milli Qurtuluşdan Zəfərə doğru"

## Müdafiə Nazirliyi və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə kütləvi vətənpərvərlik bayramı keçirilib

*Qazaxda Müdafiə Nazirliyi və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışının 25-ci ildönümü və Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyinə həsr olunmuş kütləvi vətənpərvərlik bayramı keçirilib.*



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, "Milli Qurtuluşdan Zəfərə doğru" devizi altında keçirilən kütləvi vətənpərvərlik bayramının iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə tər çiçək dəstələri qoyaraq, xatirəsini ehtiramla yad ediblər.

Daha sonra Azərbaycan Ordusunun ilk qurucularından olan general-mayor Cavad bəy və polkovnik Rüstəm bəy Şıxlinskilərin yaşadıqları evə vurulmuş xatirə lövhəsinin açılış mərasimi olub.

Layihənin müəllifi, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani açılış mərasimində çıxış edərək Cavad və Rüstəm Şıxlinskilərin ordu quruculuğundakı xidmətlərindən danışıb, onların həyat və fəaliyyətlərinin gənc nəslə bir örnək olduğunu bildirib. Eyni zamanda, ilk general rütbəsini almış Süleyman bəy Əfəndiyevin həyatından söz açaraq, yaxın günlərdə onun adının əbədiləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin görüləcəyini bildirib.



Süvari əsgərlərin tədbirə qatılması alqışlarla qarşılanıb.

Lövhənin rəmzi açılışını bildirən ağ örpək götürüldükdən sonra Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək tədbir iştirakçılarını, bütün qazaxlıları möhtəşəm bayram münasibətilə təbrik edib, keçirilən tədbirin rayon sakinlərinin yaddaşında uzun müddət silinməz iz buraxacağını deyib.

Milli Məclisin deputatları Ülviyyə Ağayeva, Kamran Nəbizadə, Bakı Dövlət Universitetinin mülki hüquq kafedrasının müdiri Məhəbbət Dəmirçiyeva, sərbəst güləş üzrə böyüklərdən ibarət Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov çıxış edərək, bu cür tədbirlərin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük əhəmiyyət daşıdığını bildiriblər.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından tədbir iştirakçılarını təbrik edib, Qazaxda vətənpərvərlik mövzusunda keçirilən tədbirin önəmindən danışıb.

Polkovnik Rüstəm bəyin nəvəsi Rüstəm Şıxlinski çıxışında bu cür yüksək səviyyəli tədbirin keçirilməsinə görə Prezident İlham Əliyevə və təşkilatçılara ailəsi adından dərin minnətdarlığını bildirib.

Möhtəşəm bayram tədbirində Vətən uğrunda canından keçmiş igid oğul və qızlarımızın da xatirəsi yad edilib, ruhlarına dualar oxunub. "Fəxri qazaxlılar" parkı ilə tanışlıqdan sonra qonaqlar Şəhidlər xiyabanına baş çəkərək memorialın önünə gül dəstələri qoyub və şəhidlərə olan ehtiramlarını ifadə ediblər.

Daha sonra bayramsayağı bəzədilmiş Mədəniyyət Mərkəzinin qarşısında "Milli Qurtuluşdan Zəfərə doğru" devizi altında keçirilən bayram tədbirinə start verilib.

Layihə rəhbəri polkovnik Abdulla Qurbani və Xalq artisti Pərvanə Qurbanova bayram tədbirini açıq elan edərək bütün tədbir iştirakçılarını və qonaqları salamlayıb, Qazax elinin əsl bayram əhval-ruhiyyəsində olduğunu bildiriblər. Bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd edilməsinin, Ulu Öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışının 25 ilinin, Bakı şəhərinin erməni bolşeviklərindən azad edilməsinin 100 ilinin tamam olmasının xalqımız üçün əsl bayram olduğunu diqqətə çatdırıblar. A.Qurbani "Milli Qurtuluşdan Zəfərə doğru" devizi altında keçirilən hərbi vətənpərvərlik tədbirinin məqsədi, mahiyyəti və proqramı barədə ətraflı məlumat verərək bildirib ki, bu tədbirdə ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında, eləcə də müstəqil Azərbaycanın ordu quruculuğunda müstəsna xidmətləri bir daha xatırlanacaq. Layihə rəhbəri qeyd edib ki, Müdafiə Nazirliyi və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşan teatrlaşdırılmış, kinolaşdırılmış kütləvi vətənpərvərlik bayramına on mindən çox rayon sakini, hərbi qulluqçular və qonaqlar qatılıb.

Tədbirdə ümummilli lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra Dövlət himni səslənib.

"Azərbaycan fanforası" hərbi orkestr tərəfindən ifa olunub. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini, hakimiyyətə gəldiyi anları, xalqla görüşlərini, Azərbaycan xalqı naminə göstərdiyi misilsiz xidmətləri, ordu quruculuğu sahəsindəki əldə edilən nailiyyətləri özündə əks etdirən kadrlar monitor vasitəsilə nümayiş etdirilib.

Sonra Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov qeyd edib ki, 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəni xaosdan və dövlətçiliyini itirmək təhlükəsindən xilas etdi.



1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Heydər Əliyev özünün siyasi yenilməzliyi və qətiyyəti ilə Azərbaycan dövlətçiliyini ağır fəciələrdən qurtardı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentində keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına geniş imkanlar açdı. Beləliklə, Azərbaycanın beynəlxalq arenada özünəlayiq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində qlobal işlərə start verildi.

Rəcəb Babaşov deyib: "Ən böyük xoşbəxtlik ulu öndər Heydər Əliyevin müəyyən etdiyi dövlət idarəçiliyi strategiyasının bu gün onun ideyalarına sadiq olan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir. Ulu Öndərin vaxtilə dediyi fikirlər bu gün öz təsdiqini bir daha tapır: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Sonra səhnə incəsənət xadimlərinin ixtiyarına verilib. Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının ifasında nümayiş olunan ədəbi-bədii xereoqrafik kompozisiya tədbirə toplaşanlar tərəfindən alqışlarla qarşılanıb.

Əməkdar artist Aybəniz Haşımova və "Bülbüllər" qrupunun ifasında səslənən "İgid oğlum haydı gəl" mahnısı tədbirə toplaşanlarda əsl bayram əhval-ruhiyyəsi yaradıb.

Xalq artisti Samir Cəfərovun "Lələtəpə fatehləri" mahnısının sədaları altında aprel şəhidləri kapitan Orucov Mühüd Qurban oğlunun, baş leytenant Namazov Elvin Məmməd oğlunun və əsgər Əliyev Orxan Məhəmməd oğlunun göstərdikləri şücaətdən danışılıb, əziz xatirələri bir daha yad edilib.

Əməkdar artistlər Nuriyə Hüseynovanın, Cahangir Qurbanovun, Xalq artisti Alim Məmmədovun bir-birindən şən-şux hərbi vətənpərvərlik mahnıları tədbirə əsl bayram əhval-ruhiyyəsi qatıb.

İlk topoqraf İbrahim ağa Vəkilovun, "Artilleriyanın Allahı" adlandırılan Əlağa Şıxlinskinin, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, general Səməd bəy Mehmandarovun, Osmanlı ordusunun generalı, Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın, general-mayor Süleyman Əfəndiyevin, Azərbaycan Ordusunun ilk qurucularından olan general-mayor Cavad bəy və polkovnik Rüstəm bəy Şıxlinskilərin meydana təşrif buyurması tədbirə toplaşanlarda qürur hissi oyatdı. Aktyorların ifasında səhnəyə daxil olan tarixi şəxsiyyətlərin səhnədə görünmələri tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

Tədbir Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının ifasında səslənən "Vətən marşı" mahnısı ilə başa çatıb.

# Hərb Tarixi Muzeyinə ekskursiya

*"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin təşəbbüsü, Müdafiə və Təhsil nazirliklərinin dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində gənclərimizdə hərbi vətənpərvərlik hissini gücləndirmək məqsədilə Bakı şəhər Səbail rayonu 6 nömrəli tam orta məktəbin müəllim və şagirdlərinin Azərbaycan Hərb Tarixi Muzeyinə ekskursiyası təşkil olundu.*





Ekskursiya zamanı muzeyin ilk zalı olan qədim, erkən, orta əsrlər dövrü, Manna-Midiya, Atropatena, Albaniya, Səfəvilər dövlətləri, Azərbaycanda xanlıqların yaranması, onların qoşun növləri haqqında muzey bələdçi-tərcüməçisi Nurtac Piralizadə ətraflı danışdı.

Muzeydə sərgilənən eksponatlar arasında Naxçıvandakı Oğlanqalanın maketi, Atropatena dövlətinin başçısı Atropatın heykəli şagirdlərin diqqətini daha çox cəlb etdi.

100 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, quruculları, dövlət atributları - gerbi, bayrağı, himni ilə bağlı ətraflı məlumatları muzey bələdçi-tərcüməçisi Gülnar Beşirova verdi.

Muzeyin bələdçi-tərcüməçisi Zümrüd Məhərrəmova 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Azərbaycan Ordusunun yaranması və inkişafı, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti, ordu quruculuğu ilə bağlı gördüyü işlər, keçirdiyi görüşlər, həmçinin Silahlı Qüvvələrin qoşun növləri üzrə hərbi geyim nümunələri haqqında danışdı.

Azərbaycan Hərb Tarixi Muzeyinin həyətində nümayiş olunan hərbi texnikalar haqqında məlumatı texnika və silah hissəsinin bələdçi-tərcüməçisi Gülnar Əfəndiyeva iştirakçıların nəzərinə çatdırdı.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun idarə etdiyi 17 nömrəli tankın, Azərbaycanın Milli Qəhrəmanı, tank komandiri Albert Aqarunovun idarə etdiyi tankın maketləri şagirdlər tərəfindən maraqla qarşılandı.

Müəllimlərdən Cəmilə Vəliyeva, Səbinə Məcidova hər bir gəncin Vətəninin tarixini dərindən bilməsinin vacibliyindən, onlarda vətənpərvərlik hisslərinin daha da gücləndirilməsindən danışdılar.

Şagirdlərdən Rüfət Əlizadə, Murad Nağılı, Məhəmməd İssevər, Fidan Əhmədzadə, Sevda Əliyeva, Emin Nəbizadə, Banu Allahverdiyeva, Sami Məmmədli, Aminə Hasilova, Sənan Səfərli, Mircavad Rəhimov və başqaları xoş təəssüratlarını bölüşdülər.

Daha sonra tədbir "N" hərbi hissəsində davam etdi.

"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin sədri Əşrəf Əhmədov öncə xalqımızı Ramazan bayramını munasibətilə təbrik etdi. Bildirdi ki, bizim ən əsas vəzifəmiz cəmiyyətimizə, xalqımıza dəyərli vətəndaşlar hazırlamaqdır. "Gənclərimiz vətənpərvər ruhda böyüməlidirlər. Bunun üçün də Vətənini, xalqını, millətini sevən hər bir vətəndaşın üzərinə çox böyük məsuliyyət düşür...".

Əsgər və şagirdlər "Bayrağa sədaqət andı" içərək Azərbaycan Respublikasının bayrağını hər zaman uca tutacaqlarına, yüksəklərdə dalğalanması üçün mübarizə aparacaqlarına söz verdilər.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin dövlət qulluqçusu Zümrüd Səmədova bildirdi ki, 1918-ci il mayın 28-də qəbul edilmiş İstiqlal Bəyannaməsində qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. "Çünki müstəqil ordusu olmayan dövlətin milli dövlətçiliyi həmişə yadellilərin təhlükəsi altında yaşamağa məhkumdur. Bu zərurətlə bağlı 1918-ci il mayın 28-də yaradılan ilk kabinədə Azərbaycan hökumətinin Müdafiə naziri vəzifəsinə general Xosrov bəy Sultanov təyin edildi. Azərbaycan Demokratik Respublikasının ordu quruculuğu haqqında tədbirlər planına müvafiq olaraq, 1919-cu il noyabrın 1-nə qədər ordunun ən mühüm struktur bölmələri və hissələri yaradılıb başa çatdırılmalı idi...".

Dövlət qulluqçusu vurğuladı ki, 23 ay ərzində ordu sahəsində böyük işlər görüldü. "Bu gün dünyanın inkişaf etmiş dövlətlərinin orduları ilə eyni sırada olan ordumuz 1918-ci ildə yaradılan ordunun varisidir. 100 il öncə olduğu kimi, Azərbaycan yenə müstəqildir və onun güclü ordusu var".

Sonda şagirdlər Vətəni, Vətən sevgisini tərənnüm edən şeirlər söylədilər.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Böyük Qələbəyə az qalıb

*Vətən anamızdır. Onun keşiyində hər zaman ayıq-sayıq dayanırıq. Bu gün torpaqlarımızın bir qismi işğal altında ola bilər, ancaq sabah Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə nəinki işğal altında olan, hətta tarixi torpaqlarımızı da azad edəcəyik. Hər bir erməni əsgəri bilməlidir ki, illərdir həsrətin çəkdiyimiz məmləkətlərimizə qayıtmaq üçün qarşımızda heç bir əngəl tanımayacağıq, - bu sözləri ön xətdə xidmət edən əsgər Nahid Mehdiyevdən eşitdim. Söhbətimiz əsnasında ordu sıralarına Masallı rayonundan çağırıldığını öyrənirəm.*



N.Mehdiyev bildirdi ki, Azərbaycan əsgərinin bir amalı var: Vətənini sevmək və onu düşmənlərdən qorumaq. "Mən bir azərbaycanlı kimi erməni faşistlərinin doğma Vətənimizin başına gətirdiklərini, torpaqlarımızı işğal etdiklərini, minlərlə soydaşımızı doğma ocaqlarından didərgin saldıqlarını, mərd və igid oğullarımızın şəhid olduqlarını unutmayacam və hər an mənfur düşməndən qisas almağa hazıram. Komandirlərimin səyi nəticəsində xidmətimi düzgün təşkil etmək, düşmənin bütün fəaliyyətini nəzarət altında saxlamaq və hər an düşmən təxribatlarının qarşısını almaq arzusundayam". Həmsöhbətim onu da qeyd etdi ki, ön xətdə xidmət etməkdən qürur hissi duyur. Daha sonra əsgər Mehdiyev yaradılan məişət şəraitindən də söz açdı. "Düşmənlə təmas xəttində xidmət etməyimizə baxmayaraq, hər zaman yuxarı komandanlığın qayğı və diqqətini hiss edirik. Rahatlığımız üçün hər cür sosial-məişət şəraiti yaradılıb. Asudə vaxtlarımız çox maraqlı və səmərəli keçir. Bölmədə müxtəlif növ yarışlar təşkil olunur. Ölkədə və dünyada baş verən hadisələri televiziya vasitəsi ilə izləyirik. Bu səbəbdən xidmətimiz nə qədər çətin olsa da, o qədər də maraqlı və şərəflidir".

- Əsgər Mehdiyevin gözlərində xidmətə gəldiyi ilk gündən düşmənə nifrət hiss olunurdu. Yadımdadır, bir gün məndən nə zaman döyüş növbətçisi çıxacağını soruşdu. Düzünü desəm, gənc əsgərimizin istəyi məndə qürur hissi oyatdı. Çünki bu istək onda vətənpərvərlik hissindən irəli gəlirdi. Onu da qeyd edim ki, əsgər Mehdiyev hər zaman öz nizam-intizamı, döyüş və fiziki hazırlığı ilə seçilir. Keçirilən məşğələlərdə fəal iştirak edir. Komandir heyətinin verdiyi əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetirir. Qısa vaxt ərzində komandir və əsgər yoldaşları arasında hörmət qazanıb, - sözləri ilə əsgər Nahid Mehdiyevin manqa komandiri kiçik çavuş Səid Feyzullayev söhbətimizə qoşulur.

Nahid əsgəri dostluqdan da söz açaraq bildirdi: "Hərbi xidmətə gələndə çox darıxacağımı düşünürdüm, çünki ailəmdən və dostlarımdan ayrı qalacaqdım. Lakin burada yeni ailə, əsgər Xəyyam Kərimovun timsalında yeni dostlar qazandım. Bütün çətin anlarda Xəyyam yanımda olur, onunla sevincimi, qüssəmi bölüşürəm. İnanıram ki, hərbi xidmətim başa çatdıqdan sonra da möhkəm və ayrılmaz dost qalacağıq. Çünki əsgər dostluğu əbədi olur".

Ordu sıralarında xidmət edən gənclərin Vətəninə sevgisini, komandirlərin tabeliyində xidmət edənlərə qayğısını, əsgərlərin bir-birinə bəslədiyi mehriban münasibətləri gördükcə bir daha əmin oldum ki, Böyük Qələbəyə az qalıb.

**Baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu"**

# "Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikirlərini ciddi qəbul etmirəm"

*Mövcud erməni cəmiyyətinin qurulmasında kilsənin böyük rolu olub. Erməni kilsəsi monoetnik cəmiyyət formalaşdıraraq Ermənistan adlı dövlət yaradıb. Əslində, erməni milləti adlı köklü bir xalq da yoxdur.*

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli politoloq Çiğdem Şahin deyib. O qeyd edib ki, kilsə ilə erməni lobbisinin ortaq layihəsi olan monoetnik Ermənistan bəzi güclərin maraqlarına xidmət edir. Dağlıq Qarabağ münaqişəsinin qızışmasında maraqlı olan güclər istədiklərini erməni kilsəsi vasitəsilə həyata keçirirlər. Dağlıq Qarabağda və ətraf rayonlarda həyata keçirilən cinayətlərin əsas aktoru kilsə və II Qaregindir. Bu cinayətlərə görə katolikos cəzalandırılmalıdır.

Nikol Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı son fikirlərinə münasibət bildirən politoloq onun bu sözlərini ciddi qəbul etmədiyini vurğulayıb.

Çiğdem Şahin qeyd edib ki, Azərbaycan aprel döyüşləri zamanı həm hərbi gücünü, həm də siyasi jestini dünya ictimaiyyətinə nümayiş etdirdi. Azərbaycan Ermənistana ağır zərbə vurdu. Rəsmi Bakı bir daha dünyaya sübut etdi ki, işğal altındakı torpaqlarını azad etmək qüdrətindədir.

Politoloq deyib ki, hazırda dünya birliyi bölgədə lider ölkə kimi Azərbaycanı qəbul edir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminində mühüm rol oynayır. Bu yaxınlarda açılışı olan Cənub Qaz Dəhlizi, dünən istismara verilən TANAP xüsusi əhəmiyyətə malik layihələrdir. Bu baxımdan, Qərb siyasi gedişlərini Azərbaycanın istəyinə uyğun qurmağa məcburdur.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** *Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır.*

**Suallar:**

**1. Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir.**

**2. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır.**

### *Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir*

Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri var. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanununun Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ulu Öndərin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Dünya iqtisadiyyatına uğurla inteqrasiya, ölkə daxilində iqtisadi liberallaşma, kredit reytinqimizin artması, iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyinin yüksək mövqedə olması, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən-ilə çoxalması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir.

Ulu Öndərin vaxtilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Cənubi Qafqazda aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində də Heydər Əliyevin rolu danılmazdır.

Ümummilli Liderin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Heydər Əliyevin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Xalqımızın Ümummilli Liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının kəlamı, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi Vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir.

Ümummilli lider Heydər Əliyevin memarı olduğu Azərbaycanda yüzlərlə sənaye və infrastruktur obyektləri, məktəblər, xəstəxanalar, idman kompleksləri, yaşayış evləri, inzibati binalar və digər tikililər ucaldılır, yollar salınır. "Azərbaycan 2020 - gələcəyə baxış" İnkişaf Konsepsiyası bizim gələcək planlarımızı əks etdirməklə yanaşı, bir daha sübuta yetirir ki, Heydər Əliyevin ölkəmizin sürətli tərəqqisini bu gün də təmin edən irimiqyaslı proqramları xalqımızın sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına xidmət göstərir.

### *Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısıdır*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlətçiliyimizin qorunub saxlanılmasında və yeni Azərbaycanın qurulmasında Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir.

İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının formalaşmasında, bu siyasətin gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Onun ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsində, xüsusilə neft-qaz yataqlarının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilələrin bağlanmasında və reallaşdırılmasında, ümumiyyətlə, Azərbaycan Respublikasının dünyaya inteqrasiyasında mühüm xidmətləri vardır.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü olmuş İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti doğma xalqa qətiyyətlə və cəsarətlə xidmət etmək nümunəsidir. Onun AŞPA-dakı məqsədyönlü, qətiyyətli və cəsarətli çıxışları Azərbaycanın Avropa məkanında nüfuzunun daha da artmasına güclü təsir göstərmişdir. Məhz İlham Əliyevin yorulmaz fəaliyyəti, qətiyyətli çıxışları sayəsində erməni təcavüzkarları Avropa Şurasında ifşa olunmuş, qondarma "Dağlıq Qarabağ problemi" barədə Qərb dünyasında obyektiv rəy formalaşmış, həmin münaqişəyə düzgün siyasi qiymət verilmiş, onun həlli yolunda mühüm addımlar atılmışdır. Avropa Şurasında Ermənistanın təcavüzkar, işğalçı dövlət kimi tanınmasında, erməni terrorçuluğunun beynəlxalq terrorizmin tərkib hissəsi olmasının sübuta yetirilməsində, nəzarətdən kənarda qalan Dağlıq Qarabağın narkotiklərin ötürücü məntəqəsinə və terror yuvasına çevrilməsinin Avropa və dünya ictimaiyyətinə çatdırılmasında İlham Əliyevin böyük xidmətləri var.

İlham Əliyev ulu öndər Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir. 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Prezidenti seçilən İlham Əliyev az vaxt içərisində həmin sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu sübut etmişdir.

Hazırda Azərbaycanın beynəlxalq yarışlarda idmanın müxtəlif sahələrində ön mövqelərə çıxması, Bakının dünya miqyaslı mühüm beynəlxalq yarışların keçirildiyi mərkəzə çevrilməsi Azərbaycanın şöhrətini daha da artırır, onun beynəlxalq nüfuzuna müsbət təsir göstərir. Bu, İlham Əliyevin gənclər siyasətinin ən böyük uğurlarından biridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir.

Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna yüksək qiymət vermişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tariximizdə çox əlamətdar və önəmli hadisə idi. İlk dəfə müsəlman aləmində demokratik respublika yaranırdı...".

Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır. Ölkə başçısı sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolunu və nüfuzunu getdikcə artırır.

Bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev demişdir: "Ordu quruculuğunda da böyük addımlar atılacaqdır. Artıq bu istiqamətdə çox böyük dəyişikliklər mövcuddur və bu proses davam edəcəkdir. Azərbaycanın müdafiə potensialı güclənəcəkdir. Bu, bizim strateji xəttimizdir. Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm, nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".

Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2004-cü il tarixli sərəncamı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Azərbaycan Ordusunun hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və ordunun peşəkar zabit kadrlarına olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır.

Bu gün ərazisinin 20 faizi işğal altında olan, mühüm geostrateji məkanda yerləşən və zəngin yeraltı, yerüstü sərvətlərə malik Azərbaycanın ordusu döyüş qüdrətini artırmaqla Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qarşıya qoyduğu hər bir tapşırığı yerinə yetirməyə həm peşəkar, həm də mənəvi-psixoloji baxımdan hazırdır. Azərbaycan Ordusu günü-gündən möhkəmlənir və mətinləşir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Füzuli rayonunun ərazisindəki "N" hərbi hissəsinin əsgər və zabitləri ilə görüşündə demişdir: "Azərbaycan bölgədə ən güclü orduya malik olan ölkədir. Burada bütün cəhətlərdən - həm peşəkarlıq baxımından, həm də texnika baxımından ən güclü hərbi potensial bizdədir, ən güclü ordu bizdədir".

Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərləridir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşü onlara mübarizə əzmi aşılayır.

Azərbaycan hərbi potensialını genişləndirmək üçün özünün sürətlə artan iqtisadi imkanlarından hərtərəfli şəkildə bəhrələnir və bu iş lazımi səviyyədə həyata keçirilməkdədir. Sabitlik, dinamik inkişaf və güclü ordu quruculuğu müasir Azərbaycan üçün əsas xarakterik cəhətlərdir və bu cəhətlər bir-birilə sıx bağlıdır. Güclü iqtisadi inkişaf, gəlirlərin durmadan çoxalması hərbi xərclərin ilbəil artmasına imkan verir. Lakin ordu quruculuğu elə bir spesifik sahədir ki, burada iş yalnız iqtisadi imkanlardan kifayət qədər bəhrələnməklə bitmir. Azərbaycan öz ordusunun gücünü, kadrların hərbi peşəkarlığını daim artırır, hərbi qüdrətini yüksəldir. NATO ilə sıx və səmərəli əməkdaşlığın əsas hədəfi də məhz ordu quruculuğu prosesini sürətlə təkmilləşdirmək və müasir standartlara uyğunlaşdırmaqdır. Yekun məqsəd, başlıca niyyət isə, heç şübhəsiz, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, torpaqlarımızı işğaldan azad etməkdir. Bu qəti mərhələyə doğru gedən yolda hərbi və siyasi baxımdan xeyli mühüm nəticələr əldə olunub və bu proses davam etməkdədir. Azərbaycan özünün potensial hərbi üstünlüyünü real nəticəyə çevirmək mərhələsinə qədəm qoyub.

Ordu quruculuğunu daim diqqət mərkəzində saxlayacağını bəyan edən Ali Baş Komandan Azərbaycan Ordusunun qarşısında hər an torpaqlarımızı azad etmək üçün hazır olmaq vəzifəsini qoyaraq demişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin həllini sülh yolu ilə istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir". Aprel döyüşlərində ordumuzun əldə etdiyi uğurlar bunun bariz nümunəsidir. Bu döyüşlər bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu gün Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü özündə saxlayır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan Ordusu istənilən döyüş tapşırığını yerinə yetirməyə və ərazi bütövlüyümüzü bərpa etməyə qadirdir.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

*Heç kim unudulmur*

# Şəhidlər bu dünyanın əbədiyyət qazanan sakinləridirlər



...Əmrah son zəng günü çox sevincli görünürdü. Onun sevincini məktəb müəllimləri və sinif yoldaşları da hiss etmişdilər. Əlində üçrəngli Azərbaycan bayrağını tutan Əmrah sırada hamıdan öndə addımlayırdı. Həmin gün o qayğısız uşaqlıq illərinə əlvida deyib, müstəqil həyata ilk qədəmlərini qoyurdu. Bütün həmyaşıdları kimi Əmrahın da arzuları böyük idi. Əvvəl Vətənə övladlıq borcunu verməyi, sonra hansısa bir ixtisasa yiyələnməyi qarşısına məqsəd qoymuşdu, Əmrah. Sumqayıtda texniki kollecə daxil olan Əmrah burada cəmi altı ay oxuyur. Sonra hərbi xidmətə yollanır. "N" hərbi hissəsində xidmətə başlayır. Hərbi xidmət dövründə də yüksək hazırlıqlı nümunəvi əsgər kimi özünü göstərir.

Yüzbəyov Əmrah Aydın oğlu 1997-ci il martın 28-də Xaçmaz rayonunun Hacıməmməd oba kəndində anadan olmuşdu. Orta təhsilini kənd məktəbində alan Əmrah dərsə davamiyyəti, nizam-intizamı, savadı və dünyagörüşü ilə müəllimlərinin hörmətini qazanır. Müəllimləri inanırdılar ki, Əmrah gələcəkdə mütləq hansı bir sahədəsə özünü təsdiqləyən gənc olacaq. Əmrahın valideynləri istər orta məktəbdə, istərsə də kollecdə oxuduğu müddətdə onun haqqında həmişə xoş sözlər eşidərdilər. Övladlarının davranışının, təlim-tərbiyəsinin yüksək olmasından qürurlanardılar. Bəli, gənc Əmrah həyat yolunu özü seçmişdi. Torpağa bağlılıq, Vətənə xidmət onun həyat amalıydı.

...Aprel döyüşləri başlananda Əmrahın hərbi xidmətə gəldiyi gündən bir il keçirdi. Artıq xidmətinin çətin günləri arxada qalmışdı. Hərbi vərdişlərə dərindən yiyələnən Əmrah pulemyotçu idi. Düşmən cəbhədə növbəti dəfə də atəşkəsi pozmuşdu. Ordumuzun əks-həmlə əməliyyatı xalqımıza aprel sevincini yaşatdı. Bəzi istiqamətlərdə torpaqlarımız düşmən işğalından azad olundu. Əmrah da bu döyüşlərdə fəal iştirak edir. Lakin cəbhədə ağır məğlubiyyətlə barışmayan ermənilər atəşkəsi tez-tez pozmaqda davam edirdilər. 2016-ci il mayın 3-də Əmrah düşmənin atəş nöqtələrini susdurarkən qəhrəmancasına şəhid olur. Vaxtilə statuslarında paylaşdığı "Şəhidlik hər kəsə qismət olmur!" fikirləri artıq Əmrahın öz alın yazısında təsdiqini tapır və o arzuladığı yüksək məqama yetişir. Son zəng günü əlində tutduğu, başı üzərində dalğalandırdığı üçrəngli Azərbaycan bayrağı Əmrahın şəhidliyinə əbədi hədiyyə edilir.

Əsgər Əmrah Yüzbəyov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin adından Müdafiə nazirinin əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunur.




Əmrahın valideynləri Aydın və Tünzalə Yüzbəyovlar onun böyük qardaşı Müşviqdən tam fərqli olduğunu dedilər. "Əmrah uşaqlıqdan çox ciddi idi. Hərbiyə böyük maraq göstərirdi. Hələ kiçik yaşında olarkən taxtadan silah düzəldib qardaşı ilə dava-dava oyunu oynayardı. Daha çox müharibə filmlərinə baxmağı xoşlayardı. Hər dəfə televiziyada 20 Yanvar hadisələrinə baxanda,



Xocalı qurbanlarını görəndə çox təsirlənərdi. Həmyaşıdlarına Çingiz, Mübariz, Fərid barədə danışardı. Onların qəhrəmanlığı haqqında çoxlu məlumatlar bilirdi. Vətənpərvər uşaq idi. Qohum-əqrəba, qonşular, dostlar onu tanıyan hər kəs deyərdi ki, Əmrah yaşıdlarından tamamilə fərqli görünür. Bakıya gedəndə Müşviqi, Əmrahı Şəhidlər xiyabanına aparır, şəhidlərimizi ziyarət edirdik. Burada çəkdirdiyimiz şəkillərə baxıb bizə 20 Yanvar hadisələri barədə çoxlu suallar verməkdən yorulmazdı. Bütün bunlar Əmrahın uşaq yaddaşında həmişəlik qalmışdı. Əmrahın tələbə dostları deyir ki, onun Bakıda ən çox getdiyi yer Şəhidlər xiyabanı olmuşdur. Əmrah yolunu özü seçmişdi. Onu bu yoldan heç kim döndərə bilməzdi... Biz bir valideyn kimi Əmrahla fəxr edirik. Onun şəhid ömrü gənclərə nümunədir. Bilirsiz, oğul övladı Vətənə, el-obaya dayaqdır. Onun təəssübünü oğullar çəkməyə borcludurlar. Təki, Vətən yaşasın. Əmrah dünən tək bizim övladımız idisə, indi bütün Azərbaycanın, xalqımızın övladıdır. Əmrah kimi oğullar Azərbaycanda minlərlədir."

Anası Tünzalə xanım söhbətində Əmrahın "şəhid olaramsa, məndən ötrü ağlamazsan" sözlərini ana yanğısı ilə göz yaşları içərisində söylədi və "Mənim Əmrahım da hər kəsə qismət olmayan şəhid ömrünü yaşayır", - dedi.

Əmrahın əmiləri, bibiləri bütün qohumları, Hacıməmməd oba kəndinin camaatı onunla qürur duyduqlarını bildirdilər. Kənddə Əmrahın xatirəsinə şəhid bulağı tikilib. Hacıməmməd oba kənd qəbiristanlığında bir şəhid abidəsi ucalır. O abidə Azərbaycanımızın ərazi bütövlüyü uğrunda canından keçən, şəhidlik zirvəsində özünə əbədi məskən quran Əmrahın şərəfinə ucalan abidədir. Şəhidlər ölmür. Şəhidlər bu dünyanın əbədiyyət qazanan sakinləridirlər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Hərbi texnikalar, silahlar*

# Yeni kəşfiyyat maşını

Yeni BRDM-2 kəşfiyyat döyüş maşını Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin mühəndisləri tərəfindən hazırlanıb. Maşın BRDM-2 tipli kəşfiyyat-gözətçi maşınının şassisi üzərində hazırlanıb, həm xarici görünüşünə, həm də silahlanmasına görə BRDM maşınlarından fərqlənir.

Müasir döyüş maşını minaya, partlayışlara və gülləyə qarşı davamlıdır və öz xarici analoqlarından da fərqlənir. Maşın iki qat zirehlə möhkəmlənib və B-32 tipli zirehdələn güllələrə qarşı çox davamlıdır. Bundan başqa müasir kəşfiyyat döyüş maşını yerli mütəxəssislər tərəfindən hazırlanmış idarəolunan güllə ilə təchiz edilib. Onun silahlanmasına iki lüləli 23 mm çaplı QŞ topu, 7,62 mm çaplı RKT pulemyotu, 30 mm çaplı AQS-17 qumbaraatan, S-8 (S-5) tipli buraxıcı qurğu, tüstü qurğusu daxildir. BRDM-2 -yə müxtəlif hava şəraitində müşahidə aparmaq üçün görmə sistemləri də bərkidilib. Maşının hər tərəfində görməni təmin etmək üçün kameralar quraşdırılıb. Kameralar vasitəsi ilə əldə olunan informasiyalar komandir və sürücünün monitoruna ötürülür və orada əks olunur.



Kəşfiyyat maşınının çəkisi 8152 kiloqramdır. Maşın turbodizelli 155 at gücündə olan mühərriklə təchiz edilib və hidropnevmatik transmissiya, beşpilləli, distansion ötürücü qutuya malikdir. Maşında kondisioner də quraşdırılıb. Süräti şosse yolda saatda 110 kilometr, torpaq yolda saatda 60-70 kilometr təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyə terrorizmə qarşı mübarizəyə 1,4 trilyon dollar xərcləyib



Türkiyə 1984-cü ildən bəri terrorizmə qarşı mübarizəyə 1,4 trilyondan çox ABŞ dolları xərcləyib.

Bu barədə Türkiyənin Mədəniyyət və Turizm naziri Numan Kurtulmuş məlumat verib. Nazir diqqətə çatdırıb ki, ötən dövrdə Türkiyəyə qarşı həyata keçirilən terror aktlarında 40 min insan həyatını itirib. PKK, İŞİD və FETÖ terror təşkilatlarına kənardan beynəlxalq səviyyədə dəstək olmasa, onlar Türkiyə qarşısında bir həftə də davam gətirə bilməzlər. Ölkənin hərtərəfli inkişaf dinamikasını qorumaq üçün terrorun kökü kəsilməlidir.

### Çində dünyanın ən uzun dairəvi şüşə körpüsü inşa edilib



Çinin Xınan vilayətində dünyanın ən uzun dairəvi şüşə körpüsü inşa edilib.

Sinmi şəhərindəki dağturizm mərkəzində yerləşən körpü iyunun 16-da istifadəyə veriləcək. Yerdən 360 metr hündürlükdə, dağ səthindən 30 metr çıxıntıda yerləşən körpü turistlərə "səmada gəzinti" hissini yaşadacaq.

Qeyd edək ki, bu, ABŞ-dakı Böyük Kanyonda olan analoji körpüdən 9 metr uzundur.

### Qvatemalada vulkan püskürməsi: 114 ölü, 150 itkin



Qvatemalada yerləşən Fueqo vulkanının püskürməsi nəticəsində həyatını itirən insanların sayı 114 nəfərə çatıb.

10 gün əvvəl püskürən vulkanın ətrafında indiyə qədər 114 nəfərin cəsədi aşkarlanıb, 150-dən çox insan isə hələ də itkin düşmüş sayılır. Vulkanın ümumilikdə 1,7 milyon insana təsir etdiyi ehtimal olunur.

İyunun 3-dən bəri təhlükəli ərazilərdən 4 mindən çox yerli sakin təxliyə edilib və müvəqqəti sığınacaqlara yerləşdirilib. Hakimiyyət orqanlarının vulkandakı aktivliyi əvvəlcədən gördüyü, lakin əhalinin təxliyəsi barədə qərarı gecikdirdiyi iddiası ilə təhqiqat başlayıb.

### Mayk Pens: ABŞ-ın Cənubi Koreya ilə hərbi təlimləri davam edəcək



ABŞ-ın vitse-prezidenti Mayk Pens Donald Trampın ABŞ-ın Cənubi Koreya ilə hərbi təlimləri dayandırılması ilə bağlı bəyanatı fonunda manevrlərin keçiriləcəyini bildirib.

Bunu senator Kori Qardner deyib.

Məqalədə qeyd olunur ki, Trampın bəyanatı respublikaçılar partiyasında anlaşmazlığa səbəb olub və Pens partiya üzvlərini "sakitləşdirməyə" çalışıb. Vitse-prezidentin sözlərinə görə, "administrasiya prezidentin nədən danışdığını aydınlaşdırmağa çalışacaq" və "Cənubi Koreya ilə təlimlər davam edəcək".

Lakin Pensin kommunikasiyalar üzrə direktoru Carrod Eyqen özünün "Tvitter" səhifəsində "vitse-prezidentin Cənubi Koreya ilə təlimlərin davam edəcəyi ilə bağlı bir söz demədiyini" yazıb.

Bir qədər əvvəl Prezident Donald Tramp bəyan etmişdi ki, KXDR-lə danışıqlar doğru istiqamətdə davam edənə qədər ABŞ Cənubi Koreya ilə təlimləri dayandıracaq.

Pentaqonun nümayəndəsi isə öz növbəsində ABŞ hərbçilərinin Cənubi Koreyada təlimləri dayandırmaq barədə hələlik heç bir göstəriş almadığını bildirib. Həmçinin Cənubi Koreyanın Müdafiə Nazirliyinin məlumatına görə, müştərək təlimlərin dayandırılması ilə bağlı Amerika tərəfi ilə heç bir müzakirə aparılmayıb və hazırda qurum "ABŞ Prezidenti Donald Trampın manevrləri dayandırmaq barədə danışarkən nəyi nəzərdə tutduğunu diplomatik kanallar vasitəsilə aydınlaşdırmağa çalışır".

**AZƏRTAC-ın materialları əsasında**

# Hüquqi biliklərin artırılmasına təsir edən başlıca amil...





*Ölkəmizdə Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin təklifi ilə "İnsan Hüquqları Aylığı" çərçivəsində mütəmadi şəkildə silsilə tədbirlər keçirilir. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də "İnsan Hüquqları Aylığı" çərçivəsində tədbirlərin keçirilməsi ənənə halını alıb. Bu günlərdə kursantların hüquqi biliklərini daha da zənginləşdirmək məqsədilə "Azərbaycanda və dünyada insan hüquqlarının müdafiə mexanizmi" mövzusunda tədbir keçirildi. Belə mərasimlərin keçirilməsi kursantların hüquqi biliklərinin artırılmasına təsir edən başlıca amillərdəndir.*

Tədbiri mayor Natiq Rəhimov açaraq mövzunu iştirakçıların diqqətinə çatdırdı. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildi. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.

Naibə Şəmşiyeva çıxışında bildirdi ki, insan hüquqları irqindən, cinsindən, sosial və əmlak vəziyyətindən, əqidəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq hər kəsə aiddir: "Hər kəs bu hüquqlara malikdir və kimsə bu hüquqlardan məhrum edilə bilməz".

Naibə Şəmşiyeva daha sonra ölkəmizdə qəbul olunmuş qərar və qanunlar haqqında da tədbir iştirakçılarına məlumat verərək dedi:

"Hazırda insan hüquq və azadlıqlarının qorunmasına diqqətin artması, eləcə də Azərbaycanın sivil dünyaya inteqrasiya imkanlarının genişlənməsi ölkəmizdə insan haqlarının qorunması sahəsində yeni mexanizmlərin işlənib hazırlanması və mövcud problemlərin aradan qaldırılması labüdlüyü ilə nəticələnib. Azərbaycanda insan hüquqlarının təməli hələ XX əsrin əvvəllərində atılmışdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə bu yöndə bir sıra tədbirlər həyata keçirilmişdi. Belə ki, ölkəmiz o dövrdə şərq dünyasında ilk dəfə olaraq qadınlara seçki hüququ verməklə demokratik ölkə imicini təsdiqləmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra 70 ildən artıq bir dövr ərzində keçmiş SSRİ-nin tərkibində insan hüquq və azadlıqlarının məhdudlaşdırıldığı, bir sıra hallarda isə qadağan olunduğu bir cəmiyyətdə yaşamaq Azərbaycan xalqının müstəqil dövlətçilik və qanunçuluq sahəsində də təşəbbüs ruhunu zəiflətmədi. 1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini yenidən bərpa etdi. Amma ölkədə həmin dövrdə mövcud olan qeyri-sabit vəziyyət, hakimiyyət böhranı bu tələbatların təmin edilməsini əngəlləyirdi. Azərbaycan xalqının təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ictimai-siyasi və iqtisadi ab-havanın dəyişməsinə, ölkədə gedən proseslərin hüquqla tənzimlənməsinə əsaslı zəmin yaratdı.

Ölkəmizdə qanunçuluğun bərqərar edilməsi yönündə Ulu Öndərin atdığı ilk addım Azərbaycan Respublikasının demokratik dəyərlərə söykənən Konstitusiyasının hazırlanaraq xalqın müzakirəsinə çıxarılması oldu.

Konstitusiyada əsas ideya hakimiyyətin mənbəyində xalqın dayanması idi. Digər tərəfdən, Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarını dövlətin ali məqsədi kimi təsbit etdi. 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsi - referendumda Əsas Qanunumuz yekdilliklə qəbul edildi. Bu, ölkəmizin Avropa məkanına, qərb dünyasına inteqrasiyasını sürətləndirdi.

Naibə Şəmşiyeva onu da qeyd etdi ki, XX əsrin 80-ci illərinin sonlarından başlayaraq Ermənistanın monomilli təmizləmə siyasəti yürütməsi nəticəsində yüzlərlə azərbaycanlı ailəsi öz dədə-baba torpaqlarından zorakı şəkildə deportasiya olunaraq Azərbaycana pənah gətirdi. Daha sonra Ermənistan böyük güclərin dəstəyi ilə ölkəmizin tarixi torpaqları olan Dağlıq Qarabağ və ətraf rayonları işğal edərək oradakı yerli əhalini ağlasığmaz təzyiqlərə və işgəncələrə məruz qoydu".

Mövzunun daha əhatəli çatdırılması üçün slayd və video-materiallardan da geniş istifadə edildi.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Hərbi qulluqçular Gəncə şəhərinin tarixi abidələri ilə tanış olub

*Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə bir grup hərbi qulluqçu Gəncə şəhərinin tarixi yerləri ilə yaxından tanış olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi qulluqçular Qala Qapıları Arxeologiya və Etnoqrafiya muzeyi, Nizami muzeyi və Nizami məqbərəsini ziyarət ediblər.

Sonra hərbi qulluqçular "Vətən uğrunda!" səyyar təşviqat dəstəsinin "Əsgərdən salam!" layihəsində iştirak ediblər.



Nizami Gəncəvinin məqbərəsi qarşısında keçirilən tədbirdə "N" hərbi hissəsinin əsgərləri canlı yayım vasitəsilə ailə üzvlərinə, doğmalarına salamlarını çatdırıblar.

# Vətəni göz bəbəyi kimi qorumaq müqəddəs və məsuliyyətli vəzifədir

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin fəaliyyət planına əsasən, iyunun 13-də Qax Rayon İcra Hakimiyyəti ilə birgə "Vətənin müdafiəsinə hazıram!" mövzusunda tədbir keçirilib.

Mədəniyyət Mərkəzində reallaşan tədbirdə rayon rəhbərliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndələri, qurumun Qax rayon bölməsinin şəxsi heyəti, orta məktəblərin yuxarı sinif şagirdləri, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsinin veteranları və gənclər iştirak ediblər.

Tədbirdə çağırışaqədərki hazırlıq rəhbəri, eləcə də çağırışaqədərki hazırlıq fənni üzrə fərqlənən şagirdlər mükafatlandırılıblar.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş Madagiz ərazisində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində daha bir rüşvət qalmaqalı baş verib. 4-cü taborun komandiri vəzifəsində xidmət edən Rudo adlı erməni hərbçi əsgər Vazgen Abrahamyanın məzuniyyətə getməsi üçün onun valideynindən rüşvət alıb. Bu səbəbdən Rudo hərbi prokurorluğa çağırılıb. Məlumatda deyilir ki, indiyədək tabor komandiri tərəfindən bu cür hallar dəfələrlə təkrar olunsa da, dəlilsübut olmadığından onun barəsində tədbir görmək mümkün olmayıb. Valideynlərin çoxu övladlarının komandirlər tərəfindən incidiləcəyindən, işgəncələrə məruz qalacağından qorxduğundan rüşvət faktı ilə bağlı məlumat verməkdən çəkinirlər.

Lakin bu dəfə tabor komandirinin əsgəri 10 gün müddətinə məzuniyyətə göndərmək üçün 200 ABŞ dolları məbləğində pul tələb etməsi barədə prokurorluğa yazılı şikayət daxil olduğu bildirilir. Fakt təsdiqini taparsa, Ermənistan ordusunun tabor komandiri uzun illər "xidmətini" həbsxanada davam etdirəcək.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində xidmət edən daha bir əsgərin valideynləri məcbur qalaraq şikayət ərizəsi ilə prokurorluğa müraciət ediblər. Buna səbəb isə övladlarının xidmət etdiyi hərbi hissədə mütəmadi olaraq təhqirlərə və təzyiqlərə məruz qalmasıdır.

Artıq bir ildir ki, hərbi xidmətdə olan hərbi qulluqçu Mişa Sarqsyan hərbi hissənin çavuşu tərəfindən sistematik olaraq incidilir. Əsgərin valideynlərinin dəfələrlə komandanlığa və hərbi polisə müraciət etmələrinə baxmayaraq, nizamnamədən kənar hərəkətlərə yol verən şəxs barədə nəinki tədbir görülmür, əksinə övladları hər dəfə daha artıq təhqirlərə məruz qalırdı. Buna görə də M.Sarqsyanın valideynləri mülki prokurorluğa müraciət ediblər.

Məlumatda o da bildirilir ki, artıq şəhər prokurorluğundan hərbi hissə komandirinin adına məktub daxil olub və faktla bağlı qaldırılan cinayət işi istintaq üçün hərbi polisə göndərilib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Samir HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 422
Nüsxə 3525